“Yaşıl iqtisadiyyat” – davamlı “yaşıl” inkişafın elmi əsası

“Yaşıl iqtisadiyyat” təbii mühitin bir hissəsi olan, eyni zamanda, ondan asılı olan bir iqtisadiyyatdır. “Yaşıl iqtisadiyyat”ın konsepsiyası iqtisad elmində və fəlsəfədə mövcud olan postmodernizm, resursyönümlü iqtisadiyyat, ekoloji iqtisadiyyat, ətraf mühitin iqtisadiyyatı, yaşıl siyasət və s. kimi bir çox istiqamətlərin ideyalarını özündə əks etdirir.

Dünyada ətraf mühitin çirklənməsi, azalan təbii ehtiyatlar, iqlim dəyişmələri və artan tələbat fonunda dayanıqlı inkişafa nail olmaq üçün “yaşıl iqtisadiyyat”ın genişləndirilməsi, onun müasir tələblər səviyyəsində inkişaf etdirilməsi istiqamətlərində həyata keçirilən tədbirlər böyük əhəmiyyətə malikdir. Təsadüfi deyildir ki, ölkə Prezidenti İlham Əliyev tərəfindən təsdiq edilmiş “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də 5-ci prioritet “Təmiz ətraf mühit və “yaşıl artım” ölkəsi” adlanır.

Sənəddə ekoloji təmiz texnologiyaların tətbiqinə əhəmiyyətli yer verilməsi, təbii ehtiyatlardan, təmiz və dayanıqlı enerji mənbələrindən səmərəli istifadə, tullantıların təkrar emalı və çirklənmiş ərazilərin bərpasının təşviqi, ekoloji baxımdan əlverişli olan “yaşıl” texnologiyaların tətbiqinin genişləndirilməsi ilə bağlı qarşıya konkret tapşırıqlar qoyulub.

Bu tapşırıqların vaxtında, keyfiyyətlə və müasir tələblər səviyyəsində yerinə yetirilməsində Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, iqtisad üzrə elmlər doktoru Vüsal Qasımlının elmi redaktorluğu ilə birgə həmmüəllifliklə hazırlanıb, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin, həmçinin Ekologiya və Təbii Sərvətlər Nazirliyinin dəstəyi ilə nəşr edilən “Yaşıl iqtisadiyyat” monoqrafiyası olduqca böyük əhəmiyyətə və dəyərə malikdir. Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Böyük Elmi Şurasının qərarına əsasən nəşrə tövsiyə olunan monoqrafiya ölkəmizdə bu sahədə ilk əhatəli tədqiqat əsəridir.

Monoqrafiyada alternativ enerji mənbələri, xüsusən də işğaldan azad olunan ərazilərin “yaşıl enerji” zonasına çevrilməsi istiqamətində görülən işlərə geniş yer verilib. Bu həm də Azərbaycan Prezidentinin “Mən azad olunmuş Qarabağı və Şərqi Zəngəzuru “yaşıl enerji zonası” elan etmişəm” çağırışına bir töhfədir. Həmçinin “yaşıl büdcə” çərçivəsi və onun Azərbaycanda tətbiqi imkanları ilə bağlı aparılan tədqiqatlara da bu monoqrafiyada kifayət qədər yer ayrılır.

Kitab hazırda dünyada qlobal problemə çevirilmiş iqlim dəyişikliyi, davamlı inkişaf, iqtisadi inkişafın ekoloji hüdudları, “yaşıl şəhərlər” üçün “yaşıl iqtisadiyyat”, enerji səmərəliliyi, “yaşıl maliyyə”, Azərbaycanda “yaşıl iqtisadiyyat”ın mövcud durum və perspektiv inkişaf imkanları, “yaşıl artım” və kənd təsərrüfatında “yaşıl inkişaf” kimi vacib məsələləri əhatə edir.

Monoqrafiya üç bölmədən ibarətdir. Birinci bölmədə iqlim dəyişikliyi fenomeni ətraflı araşdırılır, mövcud durum təhlil olunur. Burada iqlim dəyişikliyi kontekstində gələcək dövr üçün proqnozlarla bağlı dəyərli məlumatlar verilir. “Yaşıl iqtisadiyyat” konsepsiyasının davamlı inkişafda rolundan bəhs edilir və bu sahənin nəzəri konseptual əsasları araşdırılır.

Bölmədə iqtisadi fəaliyyət nəticələrinin buraxılış modeli, ekoiqtisadi səmərəlilik əmsalı, iqtisadi ekspansiyanın ekoloji baxımdan davamlı, maksimum və optimum həddləri, tələbatların iyerarxiyası haqqında maraqlı anlayışlar yer alır. Davamlı iqtisadi rifah səviyyəsinin iqtisadi ekspansiyanın maksimum və optimum səviyyələrində nəzəri təhlili aparılır və ümumi rifah həddinin qiymətləndirilməsi üçün istifadə olunan Real İnkişaf İndikatoru haqqında məlumat verilir.

Bu bölmədə urbanizasiya prosesi və iqlim dəyişikliyi kimi ekoloji problemlərin qarşılıqlı əlaqəsi araşdırılır və şəhərlərin bu prosesdə rolu ilə bağlı mühüm statistik məlumatlar təqdim edilir. Burada “yaşıl urbanizasiya” məsələlərinə də toxunulur və bu sahədə vahid konsepsiyanın olmaması xüsusi vurğulanır. Eyni zamanda, oxuculara daha aydın olsun deyə “yaşıl transformasiya” məsələlərində fərqli “start nöqtələr”, ilkin struktur elementləri və hərəkətverici qüvvələrlə bağlı anlayışların əhatəli izahı verilir. Bütün bunlarla yanaşı, “yaşıl şəhərlər”in qurulmasında kom-



ponent elementlər sayılan enerji, nəqliyyat, yaşayış infrastrukturu, su və kanalizasiya xidmətləri, davamlı istehlak zənciri haqqında əhəmiyyətli məlumatlar diqqətə çatdırılır.

Monoqrafiyanın ikinci bölməsində bəşəriyyətin enerji istehlakı statistik olaraq təhlil edilir. Bu zaman enerji istehlakında yüksək paya malik olan karbon əsaslı enerji mənbələri araşdırılır və onların intensiv istifadəsinin yaratdığı ekoloji gərginliklər ətraflı təhlil olunur. Bu əsasda dünya enerji istehlakını ətraf mühitə daha az təsir göstərəcək şəkildə restruksiya etmək üçün “enerji səmərəliliyi” anlayışı izah edilir və bu amilin faydaları göstərilir.

Burada, həmçinin “yaşıl maliyyə”nin ortaya çıxma zərurəti və onun müxtəlif istiqamətlər üzrə təhlili aparılır, eyni zamanda, bu sahədə mövcud əngəllərdən bəhs olunur. Maliyyələşmənin istənilən layihənin həyata keçirilməsində önəm daşıdığı, ətraf mühiti qoruyan layihələr və texnologiyalarda fayda-xərc elementlərinin tarazsızlığı, habelə maliyyələşmənin bu tarazlığı yaratmaqdakı rolu dəyərləndirilir.

Monoqrafiyanın üçüncü bölməsində Azərbaycanda “yaşıl iqtisadiyyat”ın mövcud durumundan və perspektivlərdən danışılır. Burada Azərbaycanda “yaşıl iqtisadiyyat”ın inkişafı imkanları araşdırılır, alternativ enerji mənbələrindən istifadənin mövcud vəziyyəti qiymətləndirilir və perspektivlər barədə geniş məlumat verilir. Göstərilir ki, ölkəmizin quru ərazilərə ilə yanaşı, Xəzər dənizində də böyük “yaşıl enerji” potensialımız var. İlkin tədqiqatlara əsasən, Xəzər dənizinin Azərbaycana məxsus hissəsində külək enerjisinin ümumi texniki potensialı 157 GVt həcmindədir. Dənizdə mövcud olan bu potensialdan elektrik enerjisinin ixracı, həmçinin “yaşıl hidrogen istehsalı” ölkə iqtisadiyyatına əlavə dəyər qazandıracaq perspektivlərdir.

Bu bölmədə işğaldan azad olunan ərazilərin “yaşıl enerji” zonasına çevrilməsi istiqamətində görülən işlər barədə də dolğun informasiya verilir. Prezident İlham Əliyevin azad olunmuş Qarabağ və Şərqi Zəngəzuru “yaşıl enerji” zonası elan etdiyi bildirilir. Azad olunmuş ərazilərin təsdiqlənmiş potensialı 7200 meqavat Günəş və 2000 meqavat külək enerjisi təşkil edir. Artıq Cəbrayıl və Zəngilan rayonlarının ərazisində 240 meqavatlıq günəş elektrik stansiyasının tikilməsi istiqamətində mühüm işlər aparılır.

Burada, həmçinin iqlim dəyişikliyinin büdcə siyasətinə inteqrasiyası, Azərbaycanda iqlim dəyişikliyi ilə mübarizənin hüquqi və institusional çərçivəsi, iqlimlə əlaqəli fəaliyyətlərin maliyyələşdirilməsi, “yaşıl büdcə” çərçivəsinin tətbiqi məsələləri geniş şərh olunur. “Yaşıl artım”ın kənd təsərrüfatının inkişafında rolu dəyərləndirilir və bu sahədə mövcud nəzəri əsaslar müzakirə edilir. Nəhayət, aqrar sektorda “yaşıl iqtisadiyyat”ın inkişaf istiqamətləri göstərilməklə monoqrafiya məntiqi sonluqla yekunlaşdırılır.

Monoqrafiya Azərbaycanda “yaşıl düşüncə” və həyat tərzinin formalaşmasına töhfə verməklə, iqtisadi inkişafa dair dövlət proqramlarının, strateji sənədlərin, regional və yerli layihələrin hazırlanmasında, habelə sahəyə dair müvafiq tədbirlərin həyata keçirilməsində istifadə edilə bilər. Həmçinin monoqrafiya tədqiqatçılar, sahibkarlar, ekoloqlar, bioloqlar, doktorantlar, dissertantlar, magistrantlar və tələbələrin faydalanması baxımından mühüm önəm daşıyır.

Akif VƏLİYEV,
iqtisad elmləri doktoru, Kənd Təsərrüfatı Nazirliyi tabeliyində Aqrar Tədqiqatlar Mərkəzinin elmi katibi

Xalq qəzeti .- 2022.- 25 noyabr.- S.5.